**Göygöldə fəaliyyət göstərən istixanada nöqsanların aşkarlanmasına dair məlumat**

**(23 oktyabr 2023)**

Nəzarət tədbirləri çərçivəsində Göygöl rayonunun Qırıqlı kəndində yerləşən, Zeynalova Təranə Vidadi qızına məxsus istixanada Agentlik müfəttişləri tərəfindən yoxlama keçirilib. Baxış zamanı təsərrüfatda istifadə müddəti bitmiş 15 adda preparat aşkarlanıb. Həmçinin istehsal prosesində müvafiq nəzarətin aparılmadığı, istifadə olunan avadanlıqların təmizlənib dezinfeksiya edilmədiyi, işçi heyətin xüsusi geyim vasitələrilə təmin olunmadığı və digər nöqsanlar müəyyən edilib. Nöqsanlarla bağlı sahibkar barəsində inzibati protokol tərtib edilib və icrası məcburi göstərişlər verilib.